UOT 82

GÜNEL HÜMMƏTOVA*

# İSA HÜSEYNOV NƏSRİNİN BİRİNCİ MƏRHƏLƏSİNDƏ SOSREALİZMƏ MÜQAVİMƏT DUYĞUSU VƏ TƏNQİDİN SƏNƏTKARIN YARADICILIĞINA SƏRT REAKSİYALARI

*Bu məqalə İsa.Hüseynovun nəsrinin birinci mərhələsində sosializmə müqavimət hisslərini və sənətkarın yaradıcılığına tənqidin kəskin reaksiyasını əks etdirir. N. Hüseynova, M. Hüseyn, S. Rəhimov, M. Cəfər, J. Cəfərov, M. Arif, Q. Xəlilov, P. Xəlilov, M. Vəliyev, J. Ablayev, T. Hacıyev, Anar, Elçin görkəmli sənətkarın ideologiyası və bədii yaradıcılığının xarakteri haqqında söhbət açır. Ədəbi tənqid mahiyyəti və ədəbi və nəzəri fikrin yanaşmalarında olduğu kimi, yazıçı təfəkküründə də məhz siyasi ideologiyalar özünü göstərirdi.*

**Açar sözlər:** *İsa Hüseynov, romanlar, yazıçı, ədəbi tənqid, ideologiya*

XX əsr Azərbaycan bədii nəsrinin böyük simalarından hesab olunan İsa Hüseynovun yaradıcılığı ədəbiyyata gəldiyi vaxtdan müxtəlif kontekstlərdə ədəbi tənqidin probleminə çevrilmişdir. Ümumiyyətlə, onun ədəbi irsi bütünlükdə keçib gəldiyi yaradıcılıq yolu müstəvisində təxminən eyni prizmada səciyyələnir və daha çox üç dövrə bölünür.

a) yaradıcılığının ilk mərhələsi; “Bizim qızlar”, “Dan ulduzu” əsərlərinin yazıldığı dövr;

b) İkinci mərhələ “Saz”, “Tütək səsi”, “Kollu Koxa”, “Doğma və yad adamlar”, “Quru buda”, “Yanar ürək” və s. əsərlərinin yazıldığı dövr;

c) “İdeal”dan başlayan mərhələ.

Bunların ümumi aspektlərinin rasional yanaşmalarda təhlili bütünlükdə İ.Hüseynov yaradıcılığı, eləcə də 60-cı illər Azərbaycan nəsri timsalında ciddi təsəvvür formalaşdırır. Ədəbiyyata gəldiyi vaxtdan müxtəlif yanaşmaların, siyasi-ideoloji, sırf ədəbiyyat müstəvisində stixial mövqelərin ortaya qoyulması ilə xarakterizə olunan yaradıcılığı bütün təhlillərdə müxtəlif yanaşmaları gərəkli etmişdir. M.Hüseyn, S.Rəhimov, M.Cəfər, C.Cəfərov, M.Arif, İ.Əfəndiyev, İ.Şıxlı, Q.Xəlilov, P.Xəlilov, M.Vəliyev, C.Abdullayev, T.Hacıyev, Anar, Elçin, S.Azəri, N.Cəfərov, M.Osmanoğlu, T.Hüseynoğlu, B.Əlibəyli, V.Yusifli, və s.kimi ədəbiyyat adamlarının (eləcə də özünün) təhlillərində onun yaradıcılığına verilən qiymət bütün mərhələlərdə müxtəlifliklərlə özünə yer alır. “*Ədəbiyyata 50-ci illərin əvvəllərində gəlib. Müharibə mövzusunda yazdığı povestləri yeni Azərbaycan nəsrinin 60-cı illər ədəbiyyatının başlanğıcı hesab olunur.*

*Yaradıcılığı üç dövrə bölünür:*

*Birinci dövrə aid olan “Bizim qızlar”, “Dan ulduzu” kimi əsərlərindən mətbuatda rəsmən imtina edib.*

*İkinci dövr yaradıcılığı yazıçıya böyük şöhrət gətirib və həmin dövrdə yaratdığı irihəcmli əsərləri bunlardır: “Saz”, “”Tütək səsi”, “Quru budaq”, “Kollu Koxa”, “Teleqram”, “Yanar ürək”, “Doğma və yad adamlar”.*

*İsa Hüseynov adlı yazıçının tamamən dəyişərək Muğannaya çevrildiyi üçüncü dövrü bir qism təhlilçilər 80-ci illərdə qələmə alınan ““İdeal”la müəyyənləşdirirlər”* [4, c 6, 93]. Bu mərhələlərin daxilində ciddi özünəməxsusluqlar, fərqlilik anlamında mükəmməl yeniləşmələr kifayət qədər yer alır. İstedadın dinamikasından, şəxsiyyətin mükəmməlliyinə qədər olan proses bütünlükdə ədəbi tənqid və ədəbi proses kontekstində imtina və yeniləşmə müstəvisində özünü göstərən mükəmməl fasiləsizlikdir. Ədəbi tənqidin bu dövrlərin özündə və yaxud da ikinci, üçüncü dövrün yaradıcılığı timsalında birinciyə münasibəti, eləcə də üçüncü dövrdə birinci və ikinci dövrə münasibət metodoloji prinsiplər çərçivəsində də alt qatda işarələnən,

daha doğrusu, qorunan bağlardan əlavə yeninin nə ilə sərgilənməsini də aktuallaşdırır. Ona görə İsa Hüseynov yaradıcılğı bütün zaman kəsiklərində ədəbi tənqidi ayaq üstə saxlamağa, onu düşünməyə və söz deməyə təhrik etmişdir.

Görkəmli sənətkarın yaradıcılığının ideya-məzmun və bədii sənətkarlıq xüsusiyyəti haqqında söhbət açan Ə.Cahangir vurğulayır ki, *""İdeal" İsa Muğannanın yaradıcılığında ayırıcı zolaqdır. Buna nəzərən onun yaradıcılığı üç mərhələyə bölünür. "İdeal"a qədərki mərhələ, "İdeal" və "İdeal"dan sonrakı mərhələ. Ədib eyni zamanda əlavə edir ki, bu bölgüyə nəzərən "İdeal"ın müəllifinə də üç mərhələdə baxmaq olar - yazıçı, yazıçı-peyğəmbər, peyğəmbər. "İdeal" öz müəllifinin düşüncəsində koordinat oxlarının kəsişdiyi sıfır nöqtəsidir"*[10]. "Anadil ötən yerdə", "Bizim qızlar"dan "İsahəq, Musahəq", "Cəhənnəm", "Qəbiristan"a olan məsafə və yaradıcılıq yolu bütünlükdə yazıçının həyat və yaradıcılıq salnaməsidir və ədəbi tənqidin bəzən bir-birinə zidd, bəzən bir qədər harmoniyalı (daxili bağlantılarla) sərgilənən bir sistemi özündə ehtiva edir. Onun yaradıcılığının birinci mərhələsi mətn və düşüncə konseptində mükəmməl yazıçı orjinallığı ilə səciyyələnir.[7] "Yekədiz Məcid", "Şinel", "Zəhər", "Bir az romantika", "Haqq-ədalət", "Qayım qaya", "Unus", "Güzgülü Əhməd", "Bizim qızlar", "Dan ulduzu", "Yanar ürək" mükəmməllik və yazıçı şəxsiyyətinin müəyyənliyi anlamında əsaslı bir təsəvvürlə faktlaşır və həm də bədii düşüncənin fasiləsizliyi baxımından ədəbi tənqidin yanaşmalarını gərəkli edir. Onu da əlavə edək ki, *"İsa Hüseynov əlinə qələm aldığı gündən tənqidə, hücumlara məruz qalan yazıçılardan olmuşdur"* [9].

Ümumiyyətlə, İ.Hüseynov nəsrinin birinci və bütün mərhələlərini hansısa realizm (sosrealizm) müstəvisində təhlilə gətirmək prinsipi ədəbi tənqidə özü ilə birgə problemlərin gərginliyini də gətirmişdi. Çünki ədibin yaradıcı düşüncəsində olanlar siyasi mühitlərin qavramındakı müəyyənləşmiş prinsiplərə yox, yazıçının daxili mənəviyyatında kodlaşmış etnokulturoloji sistemə hesablanırdı. Onun hansı kontekstdən, hansı metodoloji yanaşmadan açılmasının çətinliyi məhz burada özünü göstərirdi. Daha doğrusu, İ.Hüseynovun yaradıcılıq dünyasına açılan qapının açarı fərqli idi. Belə olan tərzdə isə mövzu və qəhrəman tiplərində, həyat həqiqətinə yanaşma meyillərində fərqliliklər ciddi müzakirə və mübahisələrə yol açırdı. Fitrətindəki *"realistlik, obyektivlik, vətəndaşlıq"*[6] duyğusu bütün parametrləri ilə təhlillərə, təhqirlərə, təzyiqlərə gətirib çıxarırdı. Ədəbiyyatın, bir qədər dəqiq desək, ədəbi tənqidin özündə İ.Hüseynovun dərki və hansı müstəvidən yanaşılması problemi yaşanırdı.

"Dan ulduzu", "Yanar ürək" İ.Hüseynov yaradıcılığının birinci mərhələsinin nümunəsi olaraq ədibin bədii düşüncəsindəki inkişafın dinamikliyini, sənətkar təsəvvüründə olanların məzmununu aydınlaşdırmaq baxımından xüsusi önəm daşıyır. Bu əsərlərin mövzu və problematikası bütünlükdə cəmiyyətin, sosial mühitin rasional yaddaşında olanların dərkinə və həllinə hesablanır. Buradakı mövcud ideolojinin qoyduğu prinsiplərdən qopmaq cəhdləri ezoterik məqamların üstünlüyünə əsas olur və yazıçı buradan çıxış etməklə çatdırmaq istədiyi ideyanı bütün parametrləri ilə ortaya qoyur.

S.Azəri "Uzaq səfərlər səyyahı" məqaləsində İ.Hüseynovun müasirləri arasındakı yaradıcılıq fərqliliyini təhlil edərkən bir istiqamət kimi dil mükəmməlliyini vurğulayır: *"İsa Hüseynovun ilk povestləri də öz müasirləri, xüsusən gənc yazıçının yaşıdları haqqında səmimi, təravətli düşüncələri, təhkiyəsinin, yazı üslubunun, detallarının təzəliyi ilə seçilirdi. Təkcə bu məziyyətləri ilə İsa Hüseynov istedadlı idi, həmişə də maraqla oxunurdu. Amma... növbəti əsərində, məşhur "Yanar ürək" romanında İsa Hüseynov xatırlatdı ki, yox, o, ədəbiyyata böyük arzularla gəlibdi"* [3]. "Dan ulduzu" və "Yanar ürək" povestlərindən bəhs edən Svetlana Əliyeva isə həmin əsərləri *""Dan ulduzu" və "Yanar ürək", yeni və köhnə nəsr arasında "aşırımdır" deyir. Bu əsərlərin "aşırım" səciyyəsi birinci növbədə onların qeyri-müəyyən janr ölçüsündə olmasındadır: bilmək olmur povestdir, yoxsa roman; adət olunmuş, ənənəvi roman forması və*

*"hücuma keçmiş" povest forması arasında olan bu əsərlərdə zamanın canlı nəfəsi hiss olunmağa başladı"* [5, 129] qənaətinə gəlir. Təhlillərinə davam edərək vurğulayır ki, *"bu iki əsərdə ifadəlilik çərçivəsini genişləndirir, təhkiyəyə emosional rəng gətirib ona lirik-dramatik xarakter verir, hərəkətin "fəallaşdırılması" hesabına insan qəlbinin "böhran" anını, bütövlükdə dinamikasını verməyə müvəffəq olur. Bununla da yazıçı ibarəbazlıqdan, təsvirçilikdən yayınır, sözün estetik yükünü qat-qat artırmağa nail olur". Ümumiyyətlə, İ.Hüseynovun "Bizim qızlardan", "Dan ulduzu"ndan "Yanar ürək"ə gələn yolu tənqidin daha geniş müstəvidə mövqe sərgiləməsi ilə səciyyələnir. Həm də birinci mərhələnin yekunu, ikinci mərhələnin başlanğıcı kimi daha təfərrüatlı təhlillərin aparılmasını aktuallaşdırır. "İsa Hüseynov bizim ədəbiyyata yeni təhkiyə, dəqiq psixologizm, detallarda və təsvirlərdə lakoniklik gətirdi. O, insan psixologiyasının, yazıçı qayəsinin açılışına xidmət göstərməyən hər şeyi kənara atdı.*

*İsa Hüseynovun fikir karvanı çox uzaqlardan gəlib, uzaqlara gedir"* [3]. Ədibin yaradıcılığının ümumi sistemi nə qədər mərhələli və fərqli təsəvvür müəyyənləşdirsə də ancaq onun genetikasında etnomədəni sistemin bütün komponentləri mahiyyət məsələsi kimi sıralanır və yazıçı dərki ilə tənqidçi müşahidələri anlam və uzlaşma kontekstində bəzən dabandabana zidd, bəzən də yaxın mövqedə görünür.

Məlum olduğu kimi, İsa Hüseynovun ictimai və bədii təfəkkürdə əhəmiyyətli dəyişikliklərin baş verdiyi zaman 50-ci illərin II yarısı ilə səciyyələnir. Onun təhkiyə üsulunda, hadisələri təsvir xarakterində, psixoloji mənzərəni təqdim bacarığında özünü göstərən üstünlükləri əsərdən-əsərə, ildən-ilə zənginləşmə, əlavələrlə xarakterizə olunur. Hekayə və povestləri ilə həmişə ədəbi mühiti intensiv surətdə məşğul edən yazıçı "Yanar ürək"lə yeni başlanğıcın əsasını qoydu. Bəkir Nəbiyevin yazır ki, *"onun ilk əsərləri öz ədəbi sələfləri ilə bu qələm yoldaşlarının yaradıcılığı arasında bir növ qısa müddətli xüsusi keçid mərhələsi"*dir [8]. "Yanar ürək" İ.Hüseynov yaradıcılığının boyartımını, yazıçı təfəkkürünün imkanlılıq dərəcəsini, ədəbi prosesdə yeniləşmənin istiqamətini və səviyyənsini müəyyənləşdirmək üçün meyar, ölçüdür. Onun *"roman janrına yeni münasibət "* gətirməsi fikrini isə İ.Şıxlı qənaətləri timsalında təsdiqləsək belə, nəticəyə gəlirik ki, *"bu roman Dostayeviski üsulu, təhkiyəsi və romana, həyata Dostayevski baxışı ilə İsa Hüseynov püxtələşməsinin orjinallığı idi"* [9]. B.Nəbiyevə görə, *""Yanar ürək" nəsrimizin vaxtı ilə yeni yayılmış "üzdən şumlama" deyilən bədii təsvir üsulundan uzaqlaşmasının ilk yaddaqalan cəhətlərindən biridir"* [9]. Qoyulan problemin aktuallığı, sovet adamı modelinin yeni nəsr anlamında zədələnməsi, *"rəhbər və kütlə"* prinsipinin bütün zamanlarda bədii sferada dərki və təqdimi həmişə sənətkar bacarığına və qayəsinə hesablanmışdı. Sovetlər dönəmində də bu prinsip ədəbiyyatı izləmiş və özünəməxsus üsullarla özünü təzahür etdirmişdir. İ.Hüseynov isə yüksək yaradıcı istedadı ilə mühitə, sosrealizmin müəyyənləşdirdiyi modellərə öz sistemini oturtmaq yolunu tutdu. *"Sərt realist"* üslubu onun hekayə, povest və son olaraq "Yanar ürək" romanında bütün komponentləri ilə təzahür etdi. Bu isə *"milli koloritliyin"* təkrarolunmaz dərəcədə əks edilməsi ilə əlaqələnir. İ.Hüseynov özü bu məqamlara çox həssaslıqla aydınlıq gətirir: *"Mən artıq ayılmışdım. Müxtəlif səbəbləri bəhanə gətirib əmilərimi güllələmişdilər. Atamı güllələyib adını qoydular ki, "maşın qəzasına düşüb". Məhz bundan sonra sovet sisteminə qarşı məndə etiraz, hətta nifrət yaranmışdı. 1947-ci ildə "Yanar ürək" əsərini yazmağa başladım. O əsərdən başlayaraq sonrakı romanlarıma qədər sistemə qarşı şüurlu yazıçı etirazımı ana xətt kimi göstərməyə çalışdım. Bu əsərlər həm realist planda yazılmışdı, həm də üsyankar xarakterli idi"* [2].

Ədəbi tənqidin, eləcə də ədəbi-nəzəri fikrin yanaşmalarındakı münasibətin mahiyyətində məhz siyasi ideologiya ilə yazıçı təfəkküründə özünü göstərən fərqliliklər idi. Belə olan vəziyyətlərdə İ.Hüseynov ayrıca müzakirə və mübahisələrin, yanaşmaların predmetinə çevrilirdi.

Ədəbi tənqidin yanaşmalarında ezoterik və ekzoterik şəraitin hamıya məlum olan, lakın yazıya gətirilməsi yasaqlanan məsələlər İ.Hüseynov tərəfindən pozulduğu üçün ciddi müzakirələrə yol açırdı. Tənqidlər də onun əsərlərinin ümumi sistemi, struktur və dil müstəvisində deyil, məhz *"sosialist realizminin primsipləri"nin pozulmasından qaynaqlanırdı. "Nöqsanlardan danışanda da sosialist realisti aydın perspektivi itirməməli"* [1, c 6, 16] məsələsi bir prinsip olaraq ədəbi tənqidin məzmununu təşkil edirdi və hamısı *"yazıçının siyasi mövqeyi"*nə bağlanırdı. Bütün bunların nəticəsi idi ki, *"İsa Hüseynov tənqiddən öz yaradıcılığı üçün yaxşı nəticələr çıxaran gənc yazıçılardandır. "Yanar ürək" haqqında yazılan məqalələrdən də onun düzgün istifadə edəcəyinə inanırıq. İnanırıq ki, o, sovet cəmiyyətinin qurucu və yaradıcı adamlarının, işimizdəki nöqsanlar üçün doğrudan da narahat olan, ürəyi yanan və nöqsanları tərəddüdsüz olaraq aradan qaldıran mübariz adamların canlı bədii surətlərini yaratmağa çalışacaqdır"* [1, c 6, 16]**.** Burada əsas olan yazıçı dünyagörüşü ilə mühit arasında, qarşılaşdığı həyatın nələrlə səciyyələnməsi, siyasi sistemin rasional və qeyri-rasional baxışlarındakı uyğunsuzluq məqamlarının mütənasibsizliyi idi. "Yanar ürək"lə ədəbi tənqidin, eləcə də mühitin görkəmli nümayəndələrinin yanaşmalarındakı təzadlar *"mübariz adamların canlı bədii surətini yaratmağa çalışmaq"* [1, c 6, 16]**.** məsələsindən qaynaqlanırdı. İ.Hüseynovun *"sosialist realizminin prinsiplərindən kənara çıxması"* [1,c 6, 16] nın başlanğıcı ədəbiyyata gəlişinin elə ilk anları ilə, daha doğrusu təsəvvüründə olanlarla, görüb müşahidə etdikləri ilə bağlı idi ki, bu da hekayələrində, povest və romanlarında müxtəlif səviyyələrdə özünə yer alırdı. İsa Hüseynovun ədəbi-estetik idealı, onun dünyagörüşü, müyyənləşdirdiyi yaradıcılıq konsepsiyası "Anadil ötən yerdə"dən, "Zəhər"dən, "Şapalaq", "Küllük"dən "Bizim qızlar"a, "Dan ulduzu"na və oradan da "Yanar ürək"ə boy artımında olub yazıçı idealının ifadəsinə köklənmişdi. Sosialist realizmi prinsiplərinin pozulmasının başlanğıcı onun sənət və yaradıcılıq ideallarından, informasiya fasiləsizliyinin müəyyənləşdirdiyi sərt həyat həqiqətlərindən qaynaqlanırdı. Daha doğrusu, İsa Hüseynov olan yerdən siya-ideoloji, həm də müəyyənləşmiş metodoloji prinsipin zədələnməsi özünü göstərirdi.

N.Süleymanov, Anar, S.Azəri, T.Hacıyev, Q.Kazımov, A.Hüseynov, T.Hüseynoğlu, Q.Namazov, B.Əlibəyli, V.Yusifli və başqaları görkəmli sənətkarın yaradıcılığının mahiyyətini əhvalatçılıqdan, quru hadisə sıralanmasından çox uzaq tutmaqla nəsrin irəliyə doğru hərəkətini şərtləndirən insan anatomiyasını, dərin psixoloji qatlarını açmaq məsələsinə üstünlük vermişdir. Belə bir yolun tutulması isə siyasi, ideoloji sistemlərin, müəyyənləşmiş prinsiplərin pozulması olub ideolojinin keşiyində dayanmağa üstünlük verən ədəbi tənqidi təmin edə bilməzdi. "Bizim qızlar"dan, "Dan ulduzu"ndan "Yanar ürək"ə gələn yolun geniş müzakirə, təhlil faktına çevrilməsinin əsas məzmunu burada idi. Bədii dil mükəmməlliyi və xarakter yaratmaq bacarığı ilə müsbət təsəvvür formalaşdıran və istedadlı yazıçı qənaəti ilə ədəbi tənqidə yol tapan yazıçı *"zamanın həqiqətləri ilə"* həyatın həqiqətlərinin bağlantısında ciddi problemlər yaradırdı. Sosrealizm doqmatizmindən qopmaq və onun bədii həyat həqiqətində oynadığı funksiyanın mahiyyətini obrazların hərəkətliliyində açıqlamaq yazıçı ilə ədəbi tənqid arasında çözülməsi mümkün olmayan ziddiyətlərin başlanğıcı idi.

Bütün bunlar İ.Hüseynov nəsrinin birinci mərhələsində sosrealizmə müqavimət duyğusu ilə ədəbi tənqidin münasibətindəki mahiyyətin nələrlə ehtiva olunduğunu aydınlaşdırır.

## ƏDƏBİYYAT

1. Arif M.M. Yazıçının siyasi mövqeyi. İsa Muğanna. Seçilmiş əsərləri. [6 clddə] / M.Arif, – Bakı, Avrasiya Press, – c. 6. – 2009, –11-16 s.
2. Aydın X.Ə. 75 illik ömrün prozası // Ədəbiyyat qəzeti. – 2003, – 13 iyun. –s. 2.
3. Azəri S.Ə. Uzaq səfərlər səyyahı. / Ədəbiyyat və incəsənət qəzeti. – 1979. – 13 aprel. –s.6.

4. Əlibəyli, B.T. Dilmancsız dialoq //– Bakı, Azərbaycan, – 2008. № 6, –s.9-45.
5. Muğanna İ. Seçilmiş əsərləri: [6 cilddə] / İ.Muğanna. – Bakı, Avrasiya press, – c.45. – 2009. – 93-120 s.
6. Əliyeva, S. Sənətkarlıq dərsləri // – Bakı, Azərbaycan,– 1979, № 12.– s.129
7. Hümmətova, G.S. İsa Hüseynov yaradıcılığının tənqid tarixi // "Türk xalqları ədəbiyyatının aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları /– Bakı,18 dekabr –2015.–s.161-164
8. Hümmətova, G.S. "İdeal" roamnı yeni tənqidi düşüncə çevrəsində // Azərbaycan xalqının Ümumimilli Lideri Heydər Əliyevin anadan olmasının 92 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların III Beynəlxalq elmi konfransının materialları / –Bakı,–17-18 aprel,–2015.–II kitab.–s.852-853
9. Nəbiyev, B.Ə. Bitkin xarakterlər ustası // Kommunist, –1988, 25 iyun. –s.3.
10.Şıxlı, İ.Q. Sənətkar möcüzəsi // Ədəbiyyat və incəsənət. – 1988, 17 iyun. –s.7.
11. Muğanna, İ.M: Əsas olan öz qəlbindəkilərini yazmaqdır: [Elektron resurs] ⁄– Bakı, Day az. – Oktyabr 26, 2013.
12. www.news.day.az /culture/440199/html).

***Azərbaycan Dövlət Pedaqoji Universiteti dissertantı**
**E-mail:gunelpeniyeva@mail.ru**

**Gunel Hummatova**

## SHARP REACTIONS OF CRITICISM TO THE ARTIST'S WORK AND FEELINGS OF RESISTANCE TO SOCIALISM AT THE FIRST STAGE OF PROSE OF ISAHUSEYNOV

This article at the first stage of I.Huseynov`s prose reflects feelings of resistance to socialism and a harsh reaction of criticism to the artist's work. Nasrina Huseynova M. Hussein, S. Rahimov, M. Zkhafar, J. Zhafarov, M. Arif,, G. Khalilov, P. Khalilov, M. Valiev, J. Ablaev, T. Khadzhiev, Anar, Yelchin, S. AAB A conversation opens about the ideology and nature of the artistic work of an outstanding artist. In essence of literary criticism, as well as relations in the approaches of literary and theoretical thought, it was political ideologies that manifested themselves in writing thinking. In such situations, İ.Hüseynov became the subject of separate discussions and disputes, approaches.

**Keywords**: *İsa Huseynov, novels, writer, literary critic*, *ideology*

**Гунель Гумматова**

## ЧУВСТВА СОПРОТИВЛЕНИЯ СОЦИАРЕЛИЗМУ НА ПЕРВОМ ЭТАПЕ ПРОЗЫ ИСЫ ГУСЕЙНОВА И РЕЗКИЕ РЕАКЦИИ КРИТИКИ НА ТВОРЧЕСТВО ХУДОЖНИКА

В этой статье на первом этапе И. Гусейнов прозы отражены чувства сопротивления социализму и жесткая реакция критики на творчество художника. Насрина Гусейнова М.Хусейн, С.Рахимов, М.Зхафар, Ж.Жафаров, М.Ариф, Г.Халилов, П.Халилов, М.Валиев, Ж.Аблаев, Т.Хаджиев, Анар, Елчин, С.А.АА. Разговор о идеях и характере художественного

творчества выдающегося художника. Суть литературной критики, а также отношения в подходах литературно-теоретической мысли заключалась в том, что именно с политической идеологией И. Гусейнов проявляется в писательском мышлении.

**Ключевые слова**: *Иса Гусейнов, роман, автор, критика, идеология*

*(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 04.02.2021**
**Son variant 07.03.2021**